**«Vergi dostları» vergi sahəsində aparılan maarifləndirmə işlərində yaxından iştirak edəcəklər**

Vergilər Nazirliyi tərəfindən 2011-ci ildə qəbul olunmuş «Vergi ödəyicilərinə xidmət konsepsiyası»na əsasən, «Vergi dostları» adlı yeni layihənin həyata keçirilməsinə başlanılmışdır. Xaçmaz rayonundan başlanılan bu pilot layihəyə əsasən müəllimlər cəlb edilmişdir.

Fevralın 25-də Xaçmaz şəhəri, Zərifə Əliyeva adına 8 saylı məktəb-liseydə layihə çərçivəsində keçirilmiş tədbirin məqsədi rayonun ucqar kənd və qəsəbələrində fəaliyyət göstərən müəllimləri «Vergi dostları» şəbəkəsində birləşdirmək, onların vergilərlə bağlı məlumatını genişləndirmək və bu sahədə təbliğat-təşviqat işlərini həyata keçirməyin əhəmiyyətini izah etmək olmuşdur.
Tədbirdə cıxış edən icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev belə bir layihənin Xaçmaz rayonundan başlanmasından məmnun olduğunu vurğulamışdır. İcra başçısı respublikamızda həyata keçirilən islahatlar və görülən işlərin nəticəsində şimal zonasında sahibkarlığın inkişafı barədə danışmış, vergilərin ödənilməsinin əhəmiyyətini vurğulayaraq bu sahədə həyata keçirilən islahatların ölkəmizin inkişafında böyük rol oynadığını demişdir.

*Kənd və qəsəbələrdə vergi maarifçiliyi gücləndiriləcək*

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov son illər vergi sistemində həyata keçirilən islahatlar, vergi daxilolmalarının artım dinamikası, vergi ödəyicilərinə göstərilən xidmətlər haqqında ətraflı məlumat vermişdir: «Vergilər Nazirliyi tərəfindən şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə, vergi ödəyicilərinə elektron xidmətlərin göstərilməsi, «195» Telefon-məlumat xidmətinin təkmilləşdirilməsi ilə bağlı geniş spektrli layihələr həyata keçirilir. Vergi ödəyiciləri ilə vergi orqanı əməkdaşları arasında təmasların minimuma endirilməsi, bunun əvəzində elektron xidmətlərin səviyyəsinin və keyfiyyətinin artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirlər ödəyicilərin işini asanlaşdırmağa, onların vergiləri vaxtında və könüllü şəkildə dövlət büdcəsinə ödəmələrinin təmin olunmasına xidmət edir. «Vergi dostları» layihəsini həyata keçirməkdə əsas məqsədimiz ərazi vergilər idarələrinin və Vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhərlər istisna olmaqla, ətraf kənd və qəsəbələrdə vergi mədəniyyətini təbliğ etmək, vergi sahəsində məlumatlandırma, maarifləndirmə işlərinə dəstək verməkdir. Kənd və qəsəbələrdə cəmiyyətin ən fəal üzvləri olan müəllimləri bu işə cəlb etməklə ictimaiyyət arasında vergi mədəniyyətini və əxlaqını aşılamağa çalışırıq. Şəhər mərkəzini çıxmaq şərtilə, Xaçmaz rayonunun 79 ümumtəhsil orta məktəbinin müəllimləri arasından seçilən «Vergi dostları» bilavasitə şagirdlər, ərazidə yaşayan insanlar, o cümlədən vergi ödəyiciləri arasında vergi sahəsində biliklərin artırılmasına, maarifləndirmə, məlumatlandırma və təbliğat işlərinin həyata keçirilməsində Vergilər Nazirliyinə dəstək verəcəklər və bütün bunlar könüllü olacaqdır».

*«Vergi dostları» ilə mütəmadi görüşlər,*
*treninqlər keçiriləcək*
Tədbir iştirakçılarının nəzərinə çatdırılmışdır ki, rayon mərkəzlərindən kənarda olan kənd və qəsəbələrdəki orta ümumtəhsil məktəblərinin müəllimləri arasında «Vergi dostları» şəbəkəsinə qoşulmaq istəyənlərin seçim meyarlarına uyğunluğu yoxlanılacaq və onlarla mütəmadi görüşlər, treninqlər keçiriləcək. Treninqləri uğurla keçmiş və xüsusi fəallığı ilə seçilmiş müəllimlərə sertifikatlar veriləcək, texniki dəstək göstəriləcək. Həmin müəllimlərə kompüter, internetə çıxış və digər məsələlərdə köməkliklər ediləcək ki, onlar ölkəmizdə həyata keçirilən vergi islahatları haqqında kifayət qədər məlumatlı olsunlar.

*Məqsəd hər yerdə vergi*
*təbliğatını həyata keçirməkdir*
Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev vergi təbliğatının aparılması, vergi mədəniyyətinin formalaşdırılması sahəsində təsdiq olunmuş tədbirlər planına uyğun olaraq vergi orqanları tərəfindən sistemli şəkildə işlər aparıldığını bildirmişdir: «Cəmi 2 min işçisi olan vergi orqanlarının 430 mindən çox vergi ödəyicisinə xidmət

göstərməsi, bu sahədə baş verən yeniliklər haqqında onları məlumatlandırması fiziki cəhətdən çox çətindir. Bu işdə cəmiyyətdə söz sahibi olan müəllimlərin imkanlarından istifadə etməyin daha səmərəli olacağını nəzərə alaraq, onları bu işlərə cəlb etmək qərarına gəldik. Məqsəd hər yerdə təbliğat işi aparmaqdır. «Vergi dostları» Vergilər Nazirliyinin əməkdaşları tərəfindən daim məlumatlandırılacaqlar». A.Musayev bildirmişdir ki, «Vergi dostları» layihəsi iki il müddətinə bütün respublikanı əhatə edəcək: «Ucqar kəndlərdə öz biznesini qurmaq istəyən insanların məlumatlandırılması üçün belə bir şəbəkənin yaradılmasına böyük ehtiyac hiss olunurdu. Hesab edirəm ki, bu işlər uğurla həyata keçiriləcək və müsbət nəticələrini göstərəcək».

*Müəllimlər həm vergi ödəyicilərinə,*
*həm də vergi əməkdaşlarına əllərindən*
*gələn köməyi göstərəcəklər*

Xaçmaz Rayon Təhsil Şöbəsinin müdiri Mədinə Nurməmmədova «Vergi dostları» pilot layihəsini müsbət qiymətləndirmişdir: «Xaçmazlılar və rayonun pedaqoqları vətənini, millətini sevən insanlardır. Onlar vergi təbliğatının aparılmasında vergi əməkdaşlarına əllərindən gələn köməklikləri göstərəcəklər. Bununla onlar həqiqətən də həm vergi əməkdaşlarının, həm də vergi ödəyicilərinin dostları olduqlarını sübut etmiş olacaqlar».

Xaçmaz şəhəri, Zərifə Əliyeva adına 8 saylı məktəb-liseyin direktoru Nurcahan Abbasova belə bir tədbirin onların məktəbində keçirilməsindən məmnun olduğunu qeyd etmişdir: «Müəllimlərimiz bu işlərdə fəallıq göstərəcəklər. Çünki onlar bilirlər ki, əməkhaqlarının ödənilməsi, pensiyaların verilməsi və s. üçün vergilərin dövlət büdcəsinə vaxtında köçürülməsi vacibdir. Odur ki, insanlar arasında vergi mədəniyyətinin formalaşdırılmasında müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Biz məsuliyyətimizi dərk edərək bu işlərin həyata keçirilməsində əlimizdən gələni etməyə hazırıq».

Xaçmaz rayon Qımıl-Qışlaq kənd orta məktəbinin müəllimi Azad Tağıyev kəndlərdə vergilərlə bağlı maarifləndirmə işinin artırılmasına böyük ehtiyac olduğunu qeyd etmişdir. Onun sözlərinə görə, kənd müəllimlərinin bu sahədə əldə etdikləri məlumatları sakinlərlə, vergi ödəyiciləri ilə bölüşdürməsi çox böyük əhəmiyyət kəsb edir.

*Rəşad SADIQOV*